AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ
PUBLİK HÜQUQİ ŞƏXSİ

L D U
1 9 9 2
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

Lənkəran Dövlət Universitetinin Elmi Şurasının
" 11 " mart 2026-cı il tarixli iclasında
(protokol № 07) təsdiq edilmişdir.

Rektor _____ prof. Natiq İbrahimov

TƏCRÜBƏLƏRİN TƏŞKİLİ VƏ ƏLAVƏ TƏHSİL BÖLMƏSİNİN ƏSASNAMƏSİ

Lənkəran – 2026

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Təcrübələrin təşkili və əlavə təhsil bölməsi (bundan sonra - bölmə) Lənkəran Dövlət Universitetinin (bundan sonra – Universitet) tərkibində fəaliyyət göstərən, ali ixtisas təhsili müəssisələri (bundan sonra – təhsil müəssisəsi) tələbələrinin ixtisas üzrə təcrübə (bundan sonra – təcrübə) keçmə məsələlərini tənzimləyən struktur bölmədir.

1.2. Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ali və orta ixtisas təhsili müəssisələri üzrə tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 06 sentyabr tarixli 163 nömrəli Qərarı ilə təsdiq olunmuş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı bir istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na və Universitetin Nizamnaməsinə uyğun hazırlanmışdır.

1.3. Bölmə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında" qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Elm və Təhsil Nazirliyinin Kollegiya Qərarlarını, əmr, təlimat və sərəncamlarını, Universitetin Nizamnaməsini, Elmi Şuranın qərarlarını, rektorun əmr, sərəncam, göstərişlərini və bu Əsasnaməni rəhbər tutur.

1.4. Bölmə bu əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Tədrisin təşkili və idarə olunması və onun digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

2. BÖLMƏNİN STRUKTURU

2.1. Bölmənin strukturu və işçilərinin sayı Rektor tərəfindən müəyyən və təsdiq edilir.

2.2. Bölmənin fəaliyyətinə bölmə rəhbəri rəhbərlik edir.

2.3. Bölmə rəhbəri və digər işçilər rektor tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

2.4. Bölmənin rəhbəri:

2.4.1. Bölmənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

2.4.2. Tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, onların əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

2.4.3. Bölmə üzrə müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təklifləri Mərkəzin müdirinə təqdim edir, bu əsasnamədə göstərilən normativ-hüquqi aktların bölmə tərəfindən vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

2.4.4. Bölmənin funksiyalarını yerinə yetirmək üçün səlahiyyətləri daxilində Universitetin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

2.4.5. Bölmə üzrə daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə baxılmasını təşkil edir;

2.4.6. Bölmədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir.

3. BÖLMƏNİN MƏQSƏDİ

3.1. Tələbələrin təcrübənin təşkili zamanı tədris-öyrənmə və təcrübə arasında davamlı əlaqənin qurulması, tələbənin yaradıcılıq və tədqiqat işlərində iştirakının təmin edilməsi,

tələbənin müasir texnologiyalarla, iş üsulları və digər yeniliklərlə tanış edilməsi, təcrübə bazasının infrastrukturunun əlilliyi olan tələbələr üçün müyəssər olması.

3.2. Mütəxəssis hazırlamaq işində çevikliyi və ayrı-ayrı şəxslərin əlavə ixtisas təhsili almaq arzusunu təmin etmək məqsədi ilə təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili bu təhsili almaq istəyən şəxslərlə və ya onların işlədikləri idarə və təşkilatlarla müvafiq təhsil müəssisəsi arasında bağlanmış müqavilələr əsasında həyata keçirmək.

4. BÖLMƏNİN VƏZİFƏLƏRİ

4.1. Tələbələrin istehsalat və pedoqoji təcrübələrinin təşkili və koordinasiyası istiqamətində:

- dekan və kafedra müdirlərindən müvafiq təkliflərin alınması;
- tələbələrin ixtisaslarına uyğun olaraq təcrübə bazasını müəyyən edilməsi və təcrübə keçməsini təşkili;
-Universitetin əməkdaşlıq etdiyi yerli və əcnəbi müəsisələrdə təhsilalanların təcrübə keçməsinə şəraitin yaradılması, müvafiq müqavilələrin bağlanmasına nəzarət edilməsi;
- təcrübə təhsil müəssisəsindən kənarda keçirildiyi halda təcrübə prosesinin nəzarətdə saxlanılması

4.2. Təcrübələrinin nəticələrinin təhlili;

4.3. Əmək bazarı ilə əlaqələrin qurulması və tədris prosesinin planlaşdırılmasına dair qabaqcıl təcrübənin öyrənilməsi;

4.4. Əlavə təhsilin xidmətlərinin təşkili və ona nəzarət:

4.4.1 ixtisasartırma;

4.4.2 kadrların yenidən hazırlanması;

4.4.3 stajkeçmə və kadrların təkmilləşdirilməsi;

4.4.4 təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili;

4.4.5 dərəcələrin yüksəldilməsi;

4.4.6 yaşlıların təhsili.

4.5. Əlavə təhsilin ali və orta ixtisas təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sənədi əsasında hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edilməsi və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi.

5. BÖLMƏNİN HÜQUQLARI

5.1. Bölmə öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

5.1.1. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə məqsədiylə səlahiyyətləri daxilində Universitetin strukturlarına və müvafiq müəssisələrə sorğular ünvanlamaq va onlardan müvafiq məlumatları va sənədləri almaq;

5.1.2. Təcrübə və əlavə təhsilin təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

5.1.3. Rektorun əmr və göstərişlərinə eləcə də fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

6. BÖLMƏNİN MƏSULİYYƏTİ

6.1. Bölmənin əməkdaşları qanunvericiliyə əsasən aşağıdakı hallar üçün inzibati və intizam məsuliyyəti daşıyır:

6.1.1. Bölməyə həvalə edilmiş vəzifə və funksiyaların yerinə yetirilməməsi, müəyyən olunmuş müddət keçdikdən sonra və ya keyfiyyətsiz yerinə yetirilməsi;

6.1.2. Universitetin daxili intizam qaydalarına, əmək və tədris intizamına riayət etmədikdə;

6.1.3. Universitet rəhbərliyinin əmr, sərəncam və göstərişlərini yerinə yetirmədikdə;

6.1.4. Vəzifə səlahiyyətlərini, əmək mühafizəsi, təhlükəsizlik texnikası, yanğın təhlükəsizliyi və sanitariya qaydalarının tələblərini yerinə yetirmədikdə.

6.2. Bölmənin əməkdaşlarının məsuliyyət dərəcəsi onların vəzifə təlimatları ilə müəyyən edilir.

7. YEKUN MÜDDƏALAR

7.1. Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir və Əsasnaməyə dəyişikliklər qanunvericilklə müəyyən edilmiş qaydada edilə bilər.

7.2. Əsasnamədə nəzərdə tutulmayan məsələlər Universitetin Nizamnaməsi və mövcud qanunvericilik ilə tənzimlənir.